Türk tarixinin fəxarət mənbəyi

Bilgə Xaqan

Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

II Yazı

İdeologiya. I Göytürk və II Göytürk Xaqnlıqlarının rəsmi ideologiyası iki prinsipə əsaslanırdı: Çin mədəniyyətinin və dilinin inkar olunması və qonşular, xalqlar üzərində şəxsi üstünlük şüuru.Hər iki prinsip tam ardıcıllıqla həyata keçirilir və göy türklərin dövlətlərinin dirçəlişini şərtləndirirdi.İkinci Göytürk xaqanlığı hərbi dövlət idi,Gültəkinin yazılarında müharibə xeyli yaxşı təsvir olunur.

Türk bahadırlarının siması "Roland haqqında mahnılar" dakı rıtsarları,həm də döyüş taktikasını xatırladır.Döyüş ağır silahlanmış süvarilərin hücumu,axını ilə həll olunurdu.Bu vaxt süvarilər arasındakı məsafə elə olurdu ki,hər bir döyüşçü öz-özünə cavabdehlik daşıyırdı.Deməli,savaşın uğuru hər bir ayrıca döyüşçünün fərdi hazırlığından asılı olurdu.

Gültəkin və Bilgə Xaqanın abidələrindəki yazılar,bəzən cümlə-cümlə birbirinin eynidir.Çünki Gültəkin abidəsində yazılanlar Bilgə xaqanın sözləridir.Onun bəngüdaşına Gültəkinin ölümündən sonra meydana gələn bəzi olaylar əlavə edilmişdir.Hər iki abidədə eyni cümlələrin olması Bilgə xaqanın unudulmaması lazım gələn olayları və özündən sonra tutulması məsləhət bilinən yolu israrla bəlli etmək istəməsindədir.Hər iki abidədəki mətnlərin tamamı bugünkü yazılarımızla normal bir kitabın bütün 35 səhifəsini doldurur.

Biz aşağıda Bilgə Xaqanın həm qardaşı, həm də özü üçün tikdirdiyi abidələrdəki sözlərini birləşdirərək daha çox vəsiyyətnamə şəklində olan və tarixə, gələcəyə işıq tutan cümlələrini nəzərdən keçirsək Göytürk Dövlətçiliyinin fəaliyyətləri və öyüdləri canlanır.

Bilgə Xaqan nə deyir?"Mən millətimin yaxşı vaxtında ona xaqan olmadım...Türk millətinin,türk dövlətinin adı,sanı yox olmasın deyə,gecə uyumadım,gündüz oturmadım,ölüncəyə qədər çalışdım.Az milləti çox,ac millətimi tox qıldım...Yoxsul milləti zəngin,dustaq milləti ağa qıldım".

Mən Tanrı kimi göydə olmuş Türk Bilgə xaqan,bu çağda taxtıma oturdum.Sözlərimi sonuna qədər dinlə,yaxşı eşit!Bütün kiçik qardaşlarım,qohumlarım,oğullarım! Bütün soyum, millətim!

Sağda Şad bəylər,soldakı Tarkanlar, buyruq bəyləri! Otuz tatar, Doqquz Oğuz bəyləri! Sözlərimi yaxşıca eşidin,diqqətlə dinləyin!

Doğuda gündoğuşuna, batıda günbatısına, quzeydə gecə yarısına qədər olan yerlər içində yaşayan millətlər mənə bağlıdır.Bunca millət,bunca ölkə üçün qayda-qanun yaratdım.Bu yerlərdə artıq pozğunluq yoxdur,qarışıqlıq yoxdur. Göytürk xaqanı Ötükən ormanında oturarsa eldə sıxıntı,üzüntü olmayacaqdır.

Doğuda Şantunq düzənliyinə qədər ordu yeritdim,dənizə çatmağıma az qaldı.Güneydə Doqquz Ersinə qədər ordu yeritdim,Tibetə çatmağıma az qaldı.Batıda İnci çayını aşaraq Dəmirqapıya qədər getdim. Qüzeydə Bayırqulların torpağına ordu yeritdim.Bunca yerlərə türk adını,türk şanını çatdırdım!.

Ötükən ormanında yabançılara yer yox ! Elimi tutacaq yer Ötükən ormanıdır (meşəsidir).

Bu yerdə oturub Çin milləti ilə aramı düzəltdim.

Altın, gümüş,ipək... bunca şeyləri səxavətlə verən Çin millətinin sözü dadlı,qumaşı yumşaq,yəni ərmağanı cazibəlidir. Çinlilər bu dadlı dil və cəzbedici ərmağanlarla uzaqdakı millətləri şimikləndirib özlərinə tərəf çəkirlər. Yaxına çələndən sonra da fitnələrini yayarlar.Uzaqdakı qövmlər çinlilərin necə fəsadçı olduqlarını ancaq o zaman anlarlar.

Ey türk milləti! Dadlı sözlərə və yumşaq ərmağanlara aldandın və bir çoxlarınız öldü.Yenə yanılıb və güneydəki Çoqay ormanına, Töqültün düzənliyinə gedib yerləşsən,ey türk milləti, öləcəksən !

Oralara getdiyiniz zaman Çindən gələn düşmən adamlar aranıza soxulur və sizi aldadıb deyərlər: "Onlar uzaqdakılara pis, yaxındakılara yaxşı hədiyyələr verərlər".

Neçə avam adamlar bu sözlərə aldanıb oralara getdilər və öldülər.

O yerlərə varırsan, ey türk milləti ! Öləcəksən!Ötükəndə qalıb oralara karvan və qafilə göndərsən,sıxıntı olmaz.Ötükən ormanında otursan əbədi il (vilayət) tutaraq oturacaqsan.Tox olacaqsan!

Ey türk milləti!Sən ac olunca toxluq nədir bilməzsən, tox olunca da aclıq nədir düşünməzsən! Belə olduğun üçün səni ucaldan xaqanının sözünə baxmadın.Onun sözünü almadan yerdən-yerə vardın. O yerlərdə tükəndin.Geri qalanlarla daha da zəifləyərək məhv olurdun...

Tanrı yar olduğu,öz taleyim var olduğu üçün mən xaqan olaraq taxta oturdum.Taxtıma oturunca ac,yoxsul,dağınıq milləti topladım.Yoxsul milləti zəngin qıldım.Az milləti çox qıldım.

Sözümdə yalan,yanlış varmı? Türk bəyləri ! Millət ! Eşidin!

Türk millətinin birləşib el tutduğunu və yanıldığı zaman öldüyünü,buraya vurdum (bu daşa yazdım).Nə sözüm var isə bu əbədi daşa vurdum.Onları görərək,oxuyaraq bilin!Türk milləti! Bəylər!

Taxtına bağlı xaqanına itaət edən bəylər olaraqmı yanılacaqsınız!

Mən bu bəngüdaşı yondurdum,tikdirdim. Gözəl bir bark (türbə) yapdırdım. İçinə, çölünə gözəl naxış vurdurdum. Könlümdəki sözləri yazdırdım. Çöldə,otlaqda,quraq yerdə olanlar da bu bəngüdaşı görsün.Yabançılar daha görüb bilsin, öyrənsin!

Üstdə mavi göy,altda əsmər yer qaldıqda ikisi arasında insan oğlu yaradılmış. İnsan oğullarını idarə etmək üçün atalarım 552-ci ildə Aşina ailəsindən olan atalarım Bumin xaqan,İstemi xaqan taxta oturmuşlar.Taxta oturunca Türk millətinin elinə,nəslinə sahib olmuş,işini yoluna qoymuşlar. O zamanlar dörd tərəf düşmən imiş.Dörd tərəfə ordu yeridərək bunca milləti özlərinə bağlamışlar.Başlıya baş əydirmiş,dizliyə diz çökdürmüşlər!

Xaqan atalarım Bilgə (alim) imiş, igidimiş. Buyruq quları da (vəzirləri də) alim imiş, igid imiş. Bəylər də, millət də doğru imiş. Onun üçün eli qorumuşlar. Eli qoruyub nəsil yetişdirmişlər. Günü gəlincə əcəlləri ilə ölmüşlər. Dörd tərəfdən çoxlu millət yaslı, gözü yaşlı olaraq gəlmiş. Yas tutmuşlar, xaqanlarına ağlamışlar.

Onlardan sonar kiçik qardaşlar xaqan olmuş. Oğulları xaqanolmuş. Faqət daha sonar kiçik qardaş böyük qardaş kimi yaradılmadığı üçün, oğlu atası kimi yaradılmadığı üçün nadan xaqanlar taxta oturmuşlar. Pis xaqanlar gəlmişlər. Bunların buyruq bəyləri də biliksiz imiş. Bəylər yalançı olunca millət də onlara bənzəmiş!

Bu durumdan Çin milləti yararlanmış, acgöz, hiyləgər Çin milləti qardaşı qardaşa, milləti bir-biri ilə düşmən etmişdi. Bu tələyə düşən türk millətinin el tutduğu torpağı əldən çıxmış, başındakı xaqanını itirmiş. Soylu, şanlı oğulları Çin millətinə kölə, gənc qızları cariyə olmuş. Bəzi türk bəyləri türk adını buraxıb çincə adlar almağa başlamışlar. Çin xaqanına boyun əymişlər. Tam əlli il işlərinə, güclərinə hökm verən Çin xaqanına itaət etmişlər.

Başsız qalan türk milləti belə yanıb-yaxılırmış:

Elli-obalı millət idim elim hanı? Kimə el qazanıram? Xaqanlı millət idim xaqanım hanı? Hansı xaqanın hökmü ilə durub-oturacağam?

Belə deyib Çin xaqanına düşmən olmuş.Amma nəsil,düzən qurmayınca yenə təslim olmuş.Çin xaqanı da ona bunca iş verən türk millətini yox edəyim,soyunu qurudayım deyə çalışırmış.Türk milləti yox olmağa doğru gedirmiş...

O zaman üstdə Türk Tanrısı Türkün uğurlu yer və su mələkləri,Türk milləti yox olmasın deyə atam Kutluq Elteriş (İltəriş-el və dövlət yığan) xaqanı,anam El Bilgə xatunu göyün təpəsindən tutub yuxarı qaldırmışlar.Atam xaqan on yeddi ərlə çölə çıxmış.Bunu duyan şəhərdəki türklər də 'Dışarı çıxır" deyə xəbər alınca dağa çıxmışlar.Dağdakılar da onlara qoşulmuş,toplaşıb yetmiş ər olmuşlar...

Tanrı güc verdiyi üçün atam xaqanın ərləri qurd kimi imiş,onlar üçün düşmən qoyun kimi imiş.Atam doğuya,batıya xəbər salıb ər toplamış.Çoxalmışlar və yeddi yüz ər olmuşlar.

Yeddi yüz ər olub elsizləşmiş, xaqansızlaşmış milləti,cariyə olmuş,kölə olmuş milləti, ləyaqətinə ziyan dəymiş milləti atalarının adətinə uyğun yenidən düzlənmiş, hərəkətə keçmiş, yetişdirmişlər.

Atam xaqan yeddi il səfər etmiş,iyirmi savaş etmiş.Tanrı yar olduğu üçün başlıya baş əydirmiş,dizliyə diz çökdürmüşlər.Elinə,adətinə sahib olduqdan sonra da uçmağa varmış (ölmüş).

Atam xaqan vəfat edəndə özüm səkkiz yaşında idim.Qanuna görə əmim xaqan taxtına oturdu. Əmim xaqanlıq taxtına oturunca Türk millətini daha da gücləndirdi.Əmim xaqan olduqda özüm əliboş olduğum üçün işimi, gücümü ona verdim.Ona yardım etdim.Tanrı yar olduğu üçün on dörd yaşında Tarduş millət üzərinə Şad (başçı) oldum.

Əmim Kapqan xaqan ilə birlikdə iyirmi beş səfər edərək on üç kərə savaşdıq.Yanılıb bizə qarşı gələn türk qövmləri ilə də savaşdıq və onları da tabe etdik.

Artıq kiçik qardaş böyük qardaşın,oğullar ataların yerini bilir oldu.Qul qulluğunu,cariyə cariyəliyini anladı!

Türk bəyləri! Millət! Eşidin!

Üstdə Göy basmasa,altda yer dəlinməsə, Türk milləti,sənin elini,sənin adətini kim poza bilir?

Ey Türk milləti! Titrə və özünə dön !

İtaət etdiyin zaman səni yüksəltmiş,ucaltmış olan ağıllı və igid xaqanına azad və müstəqil yurdunda yanılıb üsyan edərək pis iş gördün.Silahlı insanlar hardan gəldilər də səni dağıdıb götürdülər.Süngülü insanlar haradan gəldilər də səni sürüb apardılar.

Ey Ötükənin xoşbəxt milləti! Getdiniz! Doğuya varanınız oldu.Batıya varanınız oldu.Vardığın yerlərdə xeyrin o oldu ki,qanın su kimi axdı.Sümüklərin dağ kimi yığılıb yatdı.Bilmədiyin üçün,yanılıb pislik etdiyin üçün əmim xaqan öldü,ruhu göylərə çəkildi.

Türk millətinin adı,sanı yox olmasın deyə atam xaqanı,anam xatunu yüksəldən Tanrı,el verən Tanrı yenə Türk millətinin adı,sanı yox olmasın deyə bu dəfə özümü xaqan etdi.

Mən millətə yaxşı vaxtında xaqan olmadım!

Ac –yalavac,çırın-çılpaq,gücsüz qalmış,yoxsul bir millətə xaqan oldum.Kiçik qardaşım Gültəkin ilə əhd etdik.Atamızın qazandığı millət adı,millət sanı yox olmasın deyə Türk milləti üçün gecə uyumadım,gündüz oturmadım.Kiçik qardaşım Gültəkin ilə iki Şad ilə ölə-siyə,bitəsiyə çalışdım.Toplaşan milləti atəşə,suya qərq etmədim.

Özüm xaqan olduğumda səpələnmiş halda olan millət ağır vəziyyətdə olsa da yenə birləşdi.Milləti yüksəltmək üçün on iki savaş etdim.Sonra Tanrı köməyi ilə bəxtim var olduğu üçün xəstə milləti diriltdim.Az milləti çox,ac milləti tox etdim.Geyimsiz milləti geyimli,yoxsul milləti bəy etdim.Dörd yanımdakı millətlər mənə tabe oldular.Millətin düşmənlərini yox etdim.

Bunca qayda-qanun yaratdıqdan sonra kiçik qardaşım Gültəkin də öyləcə uçmağa vardı...

Atam Xaqan uçmağa vardıqda kiçik qardaşım Gültəkin yeddi yaşında idi.Tanrının Umay qədər gözəl və yaxşı yaratmış olduğu anam xatunun arzusu ilə dövlətin onun xoşbəxtliyinin rəmzi olaraq kiçik qardaşım Gültəkin adını aldı.On altı yaşında ikən əmim xaqana elini,törəsini belə qazandırdı:

Altı Çub və soğdaklara qarşı səfər etdik.Onları məğlub etdik.Çinli Onq Tutuq əlli min əsgərlə gəldi,savaşdıq.Gültəkin yaylarla fırlanıb saldırdı. Onq Tutuqun silahlı əlini tutdu,onu silahlı olaraq gətirib xaqana təslim etdi.O ordunu orada yox etdik.

İyirmi bir yaşında ikən Çin generalı Çaça Sənqünlə savaşdıq.Səksən min əsgərlə gəlmişdi.Kültəkin öncə Tadikin Çorun boz atına minib saldırdı. O at orada öldü.İkinci dəfə İşbara Yamtarın boz atına minib döyüşdü. O at da orada öldü.Üçüncü dəfə Yiqən Siliq Bəyin doru (qızıl) atına minib saldırdı.Doru at da orada öldü.Düşmən Gültəkinin zirehinə,silahına,kaftanına yüzdən çox ox vurdu,amma üzünə ,başına birini belə dəydirə bilmədi.Düşmən ordusunu orada yox etdik.

Türk milləti! Gültəkinin necə hücum etdiyini,necə savaşdığını bilirsiniz!Gültəkin iyirmi altı yaşındaykən Yir Bayirqulara,qırğızlara,daha neçə-neçə millətlərə qarşı savaşdı,böyük zəfərlər qazandı.

Doqquz Oğuz milləti öz millətimdəndi.Dünya bulandığı üçün ,qısqanclıq bəlasına tutulduğu üçün düşmən oldu. Bir ildə beş yol savaşdıq.Gültəkin Azman adlı atına minib vuruşurdu.Təkbaşına yeddi əri mizraqladı (nizələdi).

Beş savaşdan sonra Amqa qalasında qışlayıb ilk baharda yenə ordu çıxardıq.Gültəkini başçı qoyub orada buraxdıq. Savaşma tədbiri gördük. Düşmən mərkəzi basdı.Gültəkin Öksüz adındakı atına minib təkbaşına doqquz əri mizraqladı.Mərkəzi qorudu, vermədi.

Anam xatun,bütün analarım,bacılarım, gəlinlərim,şahzadələrim,o günlərdə diri qalanlar! Gültəkin olmasaydı öləcəkdiniz!

Kiçik qardaşım Gültəkin uçmağa vardı.Çox-çox üzüldüm.Kədərimdən görür gözüm görməz,bilir ağlım bilməz oldu.Özüm düşündüm: Zaman da,həyat da Tanrının əlindədir.İnsan oğlu ölümlü doğulmuşdur.Göz yaşımı içəri axıdaraq,qəlbimin sızıntılarını boğaraq düşüncəyə daldım.İki Şadın,bütün kiçik qardaşlarımın,bütün millətin ağlamaqdan gözü kor olacaq deyə düşündüm də sıxıldım.

Ey Türk milləti!

Bu eli kiçik qardaşım Gültəkin ilə ölümlə çarpışaraq qazandım.Qazanıb da böyük milləti atəşə,suya salmadım (fəlakətə də düşürmədim).

Ey Ötükən ormanının milləti!Pis adam gəlib birliyini pozmasın,silahlı gəlib səni dağıtmasın deyə sənə buranı el tutdum.Qayda-qanun törə qazandırdım.

Türk milləti! Bəylər!Sözümü eşidin!

Türk millətini toplayıb el-obasısının vəsfini bu daşa yazdım.Millət yenə səhv edərsə öləcəyini də bu daşla həkk elədim.Hər nə sözüm varsa yazdım.Ona baxaraq bilin,indiki Türk bəyləri!

Türklərim,cəmi bəylərim,cəmi millətim!Qazanıb el tutduğum bu yerdən,xaqanından ayrılmasan,yaxşılıq görəcəksən.Evində oturacaq,dərdsiz olacaqsan.Sözlərimdə yanlış varmı?

Ey Türk titrə və özünə dön!"

Yazı Yolluk Təkin tərəfindən yazılmış, lakin xitabə (sözlər) Bilgə Xaqanındır. Bilgə Xaqanın bu sözləri onun nə qədər böyük hökmdar və dövlət xadimi olduğunu göstərir.Ordu dövlət ,ordu millət anlayışlı Türk millətinin bütün millətlərdən üstünlüyünə əsaslanan, Tenqriçilik dininə inanan II Göytürk dövlətinin nə qədər böyük zirvədə olduğunun dəlil sübutudur bu kitabələr.